**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AYŞƏ MUSA QIZI MƏMMƏDOVA**

# UŞAQ BAĞÇASINDA BEŞYAŞLILARIN MƏKTƏBƏ HAZIRLANMASI ÜZRƏ İŞİN SİSTEMİ

**5804.01 - Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**B A K I - 2013**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun məktəbəqədər və ibtidai təhsilin nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Yəhya Şəfi oğlu Kərimov**
***pedaqogika üzrə elmlər doktoru, professor***

**Rəsmi opponentlər:** **Rüfət Lətif oğlu Hüseynzadə**
***pedaqogika üzrə elmlər doktoru, professor***

**Шярафят Aram qızı Бахышова**
***pedaqogika üzrə fəlsəfə doktoru***

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin Педагоэика вя психолоэийа kafedrası

Müdafiə «__21____»___01___2014-cü il, saat ___ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34.**

**Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.**

**Avtoreferat «_____» ___________ 2013-cü ildə göndərilmişdir.**

Dissertasiya Şurasının
elmi katibi: **K.R. Quliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dünya təhsil sisteminə inteqrasiyaya doğru getdiyimiz hazırkı şəraitdə təhsil sistemində çox mühüm vəzifələr yerinə yetirilir. Bu vəzifələr müstəqillik yolunda inamla irəliliyən ölkəmizin siyasi, sosial həyatında baş verən yeniliklərdən, yeni konstitusiyanın tələblərindən irəli gəlir. İndi cəmiyyətimizi idarə etmək üçün daha hazırlıqlı, müstəqil düşünmək və fəaliyyət göstərmək qabiliyyətinə yiyələnmiş müstəqil həyata hazır olan şəxslərin yetişdirilməsi zərurəti meydana çıxır. Müstəqil respublikanın idarə olunması, millətin inkişafı yaxın gələcəkdə bugünkü gəncliyin öhdəsinə düşəcəkdir. Belə gəncliyin tərbiyə olunmasına məktəbəqədər tərbiyə müəssisələrindən başlamaq lazımdır. Bu məqsədlə məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim işinin düşünülmüş sistemi yaradılmalıdır. Təsadüfi deyildir ki, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda məktəbəqədər təhsilin qarşısında ciddi vəzifələr qoyulmuşdur. Təhsil Qanununda deyilir: "Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir"[1].

Məktəbəqədər dövrdə uşaqların tərbiyəsi və təlimi sayəsində yol verilən kiçik xətalar sonralar çox ciddi, qarşısı alınmaz nöqsanlar kimi özünü büruzə verir. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan təhsil proqramı əsasında fəaliyyət göstərmək, uşaqları müstəqil fəaliyyətə hazırlamaq lazımdır.

Məktəbəqədər tərbiyə müəssisələri təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların tərbiyəsi və təlimi vəzifəsini yerinə yetirir. Bu müəssisələrin son məqsədi uşaqları məktəb təliminə hazırmaqdır. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 2009-cu ildə təsdiq olunmuş "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun 18-ci məddəsi məhz məktəbəqədər təhsilə həsr olunmuşdur. Həmin maddənin 4-cü bəndində isə göstərilir ki, beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq zəruridir.[2] Qanunda bunun nəzərə alınmasma səbəb odur ki, uşağın təhsilinin sonralar nə dərəcədə müvəffəqiyyətlə gedəcəyi məhz bu başlanğıcdan asılıdır. Məktəbə hazırlığın

---

[1] Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Hüquq ədəbiyyatı. Bakı, 2009, s.26

[2] Yenə orada

əsas məqsədi isə beşyaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla onların məktəbə hazırlıq mərhələsində inkişafı, tərbiyəsi və təhsili prosesini təşkil etməkdir. Məktəbə hazırlığın vəzifələri uşaqlarda oxumaq həvəsinin, onların məktəbə müsbət emosional münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi-sosial xüsusiyyətlərin formalaşdırılmasıdır.

Uzun illərdən bəri uşaqların məktəb təliminə hazırlanmalarının öyrənilməsi göstərir ki, məktəbə hazırlıqlı gələnlərin sayı ildən-ilə artır. Son dövrdə belə uşaqların sayı 20 faizə çatır. Məktəbə hazır gələn uşaqların tərkibi öyrənildikdə məlum olur ki, onların 70 faizə qədəri uşaq bağçalarının hesabınadır.

Təcrübə göstərir ki, I sinfə gələnlərin səviyyəsinin müxtəlif olması müəllimin işini xeyli çətinləşdirir, ümumi işi ləngidir. Hazırlıqsız uşaqlarla iş çox vaxt aparır, digər uşaqlar dərsdə baxımsız qalırlar və təlim, məktəb onlar üçün maraqsız olur.

Uşağın məktəbə hazırlanması özündə iki vəzifəni birləşdirir: uşağın hərtərəfli (fiziki, əqli, psixoloji, mənəvi, estetik) ümumi inkişaf və məktəbdə öyrənəcəyi fənlərin mənimsənilməsinə xüsusi hazırlığı.

Uşağın məkəbə hazırlanması bu gün iki baxımdan xüsusi əhəmiyyət kəsb edir:

1) Təcrübə göstərir ki, I sinifdə uşaqların böyük bir qisminin müvəffəqiyyətlə təhsil ala bilməməsi, sonrakı siniflərdə geridə qalmaları onların məktəbəqədər dövrü baxımsız keçirmələri, təlimə hazırlıq üzrə ilkin vərdişlərə yiyələnməmələri ilə bağlıdır.

2) Yaxın keçmişdən fərqli olaraq hazırkı dövrdə I sinfə qəbul 6 yaşdan başlandığından məktəbə hazırlıq yaşı bir il aşağı salınmış, 5 yaşdan olmuşdur. Beşyaşlıların məktəbə hazırlanmalarını altıyaşlılarla olduğu kimi davam etdirmək pedaqoji-psixoloji baxımdan zərərlidir. Məktəb yaşı həddinin bir yaş aşağı enməsi beşyaşlılarla hazırlığın məzmunu, formaları, metod və priyomlarında mühüm dəyişikliklərin aparılmasını tələb edilir.

Hazırda beşyaşlıların məktəb təliminə hazırlanmalarında bir sıra çətinliklər qarşıya çıxır. Ən böyük çətinlik bu sahədə düşünülmüş iş sisteminin olmaması ilə bağlıdır. 5 yaşdan təlimə hazırlığın məzmunu işlənməmiş, hər bir fənn üzrə uşaqların bilməli və bacarmalı məsələlərin həcmi və sərhəddi müəyyənləşdirilməmiş, tərbiyəçilər və valideynlər üçün metodık göstərişlər, əyani vəsait, didaktik material və s. hazırlanmamış, məşğələlərin sayı, müddəti, xarakteri (ciddi, oyun və əyləncə şəklində və s.) forması (otaq şəraitində, açıq havada, təbiətin qoynunda və s.), metod və priyomları müəyyən edilməmişdir.

Çətinliklərdən biri, həm də əvvəlkilərdən heç də geri qalmayan beşyaşlıların içtimai tərbiyə tərəfindən əhatə olunmamasıdır. 110.000-dən artıq beşyaşlının yalnız 15-16 faizi uşaq bağçalarına çəlb edilib. Həmin uşaqların bağçaya müntəzəm davam etməmələri, edənlərin isə yalnız 5-6 faizinin proqram tələblərinə müvafiq hazırlıq keçdiklərini nəzərə alsaq, vəziyyətin mənzərəsi aydın olar. Deməli, beşyaşlıların ən yaxşı halda 85- 90 faizi ictimai tərbiyə müəssisələrindən kənarda qalır. Onların məktəbə hazırlanmaları valideynlərin ixtiyarına buraxılır. Doğrudur, valideynlərin 15-20 faizi övladlarının məktəbə hazırlanmasına erkən yaşlardan başlayır, onlar məktəbə gedənədək az-çox qənaətbəxş iş görür. Təcrübə göstərir ki, məktəbə gələn altıyaşlıların təxminən 20 faizi I sinifdə təlim əməyinə tam hazır olur və proqram materiallarının öhdəsindən müvəffəqiyyətlə gələ bilirlər.

Pedaqoji maarifə cəlb edilməmiş, pedaqoji-psixoloji biliklərdən xəbəri olmayan valideynlərin öhdəsinə buraxılmış uşaqlar, şübhəsiz, məktəbə lazımınca hazır gələ bilməzlər. Ailələrdə, həmçinin bəzi uşaq bağçalarında ara-sıra, təsadüfən təlimə hazırlıq xarakterli məşğələlərə cəlb edilən uşaqlar, demək olar ki, bütün parametrlər üzrə hazırlığın tələblərinə cavab verə bilmirlər.

Beşyaşlıların məktəb təliminə hazırlanmaları xüsusi qayğı və məsuliyyət tələb edir. Yaxın keçmişədək yeddiyaşlıların, daha sonralar altıyaşlıların məktəbə hazırlanmaları ilə əlaqədar aparılmış axtarışlar bu gün beşyaşlılarla iş prosesinə eynilə köçürülə bilməz.

Təqdirəlayiq haldır ki, bu sahədə ciddi çatışmazlığı hiss edən Təhsil Nazirliyi prof. Y.Ş.Kərimovun redaktorluğu ilə "Beşyaşlıların qısamüddətli təlim qruplarında məktəbə hazırlanmaları üçün proqram" (layihə) hazırlamışdır. Qarşıdakı dərs ilindən həmin proqram əsasında beşyaşlıların məktəbə hazırlanmasına başlanacaqdır.

Uşağın məktəbə hazırlanması problemi tarixən pedaqoq və metodistlərin diqqətini az-çox cəlb etmişdir. Respublikamızda bu sahədə ən ciddi axtarışlar prof.Y.Ş.Kərimovun adı bağlıdır. O, 70-ci illərin əvvəllərindən etibarən uşağın məktəbə hazırlanmasının müxtəlif parametrləri üzrə axtarışlara başlamışdır. Sonralar onun və prof.N.Kazımovun rəhbərliyi ilə V.Xəlilov, M.Həsənov, Ə.Şükürov, Z.Osmanov, H.Cəfərli, H.Ələkbərov, B.Quliyev, A.Rəhimov, S.Məmmədov, O.Abbasov və başqaları bu sahədə tədqiqat aparmışlar. Mətbuatda praktik işçilərin, tərbiyəçilərin məqalələri də dərc olunmuşdur.

Tədqiq etdiyimiz problem psixoloqların da nəzər-diqqətindən kənarda qalmamışdır. Prof.Ə.Qədirov, prof.R.Əliyev, M.Həmzəyev, L.Bağırova bu sahədə fərqlənmişlər. Bu tədqiqatlar bilavasitə bizim tədqiq etdiyimiz

problemlə bağlı olmasa da, onun həllinə istiqamət verir.

Respublikamızda beşyaşlıların məktəbə hazırlanmasına həsr olunmuş tədqiqatın, xüsusilə savad təliminə hazırlıq üzrə tədqiqatın aparılmaması, bu sahədə metodik ədəbiyyatın olmaması problemin həllinə marağımızı gücləndirdi və biz "Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması üzrə işin sistemi" mövzusunda tədqiqat aparmaq qərarına gəldik.

Belə bir sual qarşıya çıxa bilər: nə üçün uşaqların məktəbə hazırlanması deyil, beşyaşlıların məktəbə hazırlanması götürülüb? Doğrudur, tədqiqatı həmin şəkildə də formalaşdırmaq olardı, lakin bu, çox böyük bir dövrü - uşağın beşillik həyatının fəaliyyətini əhatə edərdi. Bu zaman uşağın qığıldamağa başladığı, rəngləri yenicə fərqləndirdiyi dövrdən beş yaşadək olan dövrdə ətraf aləmlə tanışlığı, onda müşahidəçilik qabiliyyətini, dinləmək və eşitmək, baxmaq və görmək bacarığının inkişafı, nitq səslərini necə tələffüz etməsi, ümumiyyətlə, nitqin səs mədəniyyətinə necə yiyələnməsi, lüğət ehtiyatının necə zənginləşməsi və s. saymağı, sadə hesablama əməliyyatını, rəsm çəkməyi, mahnı oxumağı öyrənməsi əhatə edilməli idi. Bu isə bir fəlsəfə doktorluğu dissertasiyasının imkanları xaricindədir. Ona görə də biz tədqiqatımızı məktəbə hazırlıq qrupu ilə məhdudlaşdırmalı olduq. Şübhəsiz, bu zaman bəzən əvvəlki illərdə həmin istiqamətdə görülmüş işlərə də ötəri nəzər salmaq zərurəti qarşısında qalmışıq.

Tədqiqat üçün məktəbəqədər yaşın həmin mərhələsi bir də ona görə götürüldü ki, beşyaşlılar məktəbə, təlimə, oxumağa, öyrənməyə daha böyük təkidlə həvəs göstərdiklərindən onlarda problem baxımından daha rəngarəng və ciddi nöqsanlar özünü büruzə verir. Bağçanın kiçik və orta qruplarında uşaqların məktəbə hazırlanmaları üzrə işin səviyyəsini dəqiq müəyyənləşdirmək, sərhəd qoymaq mümkün olmur. Tərbiyəçi və tədqiqatçılar bu və ya digər nöqsanın keçici olduğunu və tezliklə düzələcəyini zənn edirlər. Belə güman çox vaxt aldadıcı olur. Məktəbə hazırlıq qrupunda isə artıq uşağın beşillik həyatının "qızıl dövr"ünün nəticələri özünü göstərir. Bu dövrdə məktəbə hazırlıq üzrə işin formalaşması prosesi sürətlə gedir. Hər şey demək olar ki, artıq göz qabağında olur.

Bu dövrdə tərbiyəçilərin fəaliyyətində də müxtəlif nöqsanlar özünü göstərir. Belə ki, bəzi tərbiyəçilər hər şeyi hətta yazıb oxumağı da öyrətməyə, bəziləri heç bir şey öyrətmədən hər şeyi, məktəbin üzərinə atmağa, bəziləri, əsasən, uşaqların nitqini inkişaf etdirməyə, bəziləri onları yalnız psixoloji cəhətdən hazırlamağa, bəziləri oyun elementlərindən lazımınca istifadə etməyə, bəziləri I sinfin metod və priyomlarını eynilə uşaq bağçasına köçürməyə çalışırlar və s. Tədqiqatçı aldanmır, sistemli və məzmunlu iş apara bilir.

Belə bir sual da qarşıya çıxa bilər. Nə üçün beşyaşlıların bu və ya digər aspektdə - məsələn, savad təliminə hazırlanması, yaxud tibbi, psixoloji cəhətdən məktəbə hazırlanması, nitq inkişafı baxımından hazırlanması deyil, bütövlükdə, hərtərəfli hazırlanması götürülüb. Buna səbəb "məktəbə hazırlıq" anlayışının kompleks şəkildə həllinin vacibliyidir. Uşağın fiziki, yaxud psixoloji cəhətdən məktəbə hazırlığı olmadan yalnız savad təliminə hazırlığına görə (və ya əksinə) onun məktəbə hazırlığından söhbət gedə bilməz.

Hazırda çox zəruri hesab edilən, ümumiyyətlə, beşyaşlıların məktəb təliminə hazırlanmasının xüsusiyyətləri öyrənildikdən sonra gələcəkdə ola bilər ki, problemin ayrı-ayrı sahələri üzrə daha konkret, daha dəqiq tədqiqat aparılsın. Bütün bunları nəzərə alaraq "Uşaq bağçalarında beşyaşlıların məktəbə hazırlanması üzrə işin sistemi" problemi üzrə tədqiqat aparmağı lazım bildik.

**Tədqiqatın obyekti** uşağın məktəbə hazırlanması prosesidir.

**Tədqiqatın predmeti** beşyaşlıların bağçada məktəb təliminə hazırlanmasıdır.

**Tədqıqıtın məqsədi.** Tədqiqatın qarşısında beşyaşlıların bağçada məktəb təliminə hazırlanmaları İ sinifdə müvəffəqiyyətlə təhsil almaları üçün optimal şəraitin yaradılmasının yollarını işləmək məqsədi qoyulmuşdur.

**Tədqiqatın fərziyyəsi**. Tədqiqatın qarşısında belə bir fərziyyə qoyulmuşdur: əgər uşaq bäğçasında uşaqların etnik tərkibi, yaşadıqları coğrafı şərait nəzərə alınarsa, əqli tərbiyə, o cümlədən uşaqların səs mədəniyyətinin, ümumiyyətlə, nitqinin inkişafı üzrə iş kiçik yaşlardan normal təşkil edilərsə, məktəbə hazırlıq qrupunda məktəb təliminə hazırlıq üzrə işin həcmi və dairəsi düzgün müəyyənləşdirilərsə, məşğələlərə oyun elementləri daxil edilərsə, uşaqlar I sinfə gedərkən təlimə tam hazır olarlar.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını dialektik idrak nəzəriyyəsi, pedaqoqigika, xüsusilə təlim nəzəriyyəsi və psixologiya üzrə müvafiq ideyalar, tərbiyə prosesində fərdiləşdirmə və fərdi xüsusiyyətlərin nəzərə alınması təşkil edir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədi və fərziyyəsi aşağıdakı vəzifələrin yerinə yetirilməsinin zəruriliyini irəli sürdü:

1) problemlə əlaqədar proqram tələblərinin necə yerinə yetirilməsini öyrənmək;

2) uşaq bağçalarında uşaqların məktəb təliminə hazırlanmaları vəziyyətini öyrənmək;

3) problemlə əlaqədar pedaqoji və metodik ədəbiyyatı təhlil etmək;

4) beşyaşlıların məktəb təliminə hazırlanmaları üzrə optimal yollar

müəyyənləşdirmək;

5) uşaq bağçasında təlim prosesini, tərbiyə və təlim proqramını təkmilləşdirmək üçün təkliflər vermək.

**Tədqiqatın metodları:** müşahidə, müsahibə, anket sorğusu, pedaqoji eksperiment.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanda ilk dəfə beşyaşlıların uşaq bağçasında məktəb təliminə hazırlanmasının məzmunu, imkanları və yolları işlənmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqat beşyaşlıların məktəbə hazırlanmalarının yollarını müəyyənləşdirməklə, məktəbə hazırlığın və inkişafın nəzəriyyəsini zəginləşdirməyə xidmət edir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri beşyaşlıların məktəb təliminə hazırlanmalarının təşkili təcrübəsinin təkmilləşdirilməsinə, uşaq bağçasında məşğələlərin məzmunlu keçməsinə kömək göstərəcəkdir. Tədqiqatın nəticələrindən həm də məktəbəqədər pedaqoji texnikumlarda və ali məktəblərin müvafıq fakültələrində pedaqogika, psixologiya və metodika kurslarının tədrisində istifadə oluna bilər.

Nəhayət, tədqiqatın nəticələrindən uşaq bağçası üçün proqramın təkmilləşdirilməsində və dərs vəsaitinin tərtibində istifadə etmək mümkündür.

Müdafiəyə təqdim olunmuş müddəalar:

- uşaqları 5 yaşından məktəb təliminə hazırlamaq mümkündür.
- uşağın məktəbə hazırlanması üzrə işin müvəffəqiyyətlə təşkili mikromühitin nə dərəcədə nəzərə alınmasından asılıdır.
- uşaqların məktəb təliminə hazırlanmaları onların ümumi inkişafından asılıdır.

**Tədqiqatın aprobasiyası.** Problemin həlli ilə əlaqədar tədqiqatın nəticələri ADPU-nun, Azərbaycan TPİ-nin keçirdiyi elmi konfranslarda müzakirə obyekti olmuş, tədqiqatla əlaqədar 20 jurnal məqaləsi, bir metodik tövsiyə və bir kitab nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, elmi fərziyyəsi, tədqiqat metodları müəyyən edilir, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti açıqlanır, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilir, aprobasiya və tətbiq edilməsinə aid məlumat verilir.

Dissertasiyanın I fəsli **“Problemin nəzəri və praktik məsələləri”** adlanır və 5 yarımfəsli özündə birləşdirir. *“Uşağın məktəbə hazırlanması ümumpedaqoji problem kimi”* adlanan I yarımfəsildə uşağın məktəbə hazırlanması iki cəhətdən qiymətləndirilir: a) bağçada ümumi tərbiyə işinin təşkilinin əhəmiyyəti; b) uşağın savad təlimi, sadə riyazi təsəvvürlər, ətraf aləmlə tanışlıq, təsviri incəsənət, musiqi və s. məşğələlər üzrə proqram materialının intensiv mənimsənilməsi.

Uşaq məktəbə hazırlanarkən aşağıdakı ümumpedaqoji keyfiyyətlərə yiyələnməlidir:

- həyatın yeni dövrü üçün iş yükünü daşımaq, təlim əməyi əməliyyatlarını yerinə yetirmək üçün dinləməyi, anlamağı, sual verməyi, suala müstəqil cavab verməyi bacarmaq;
- müşahidəçilik, müqayisə etmək, tutuşdurmaq, mücərrədləşdirmək, ümumiləşdirmək, əqli nəticə çıxarmaq bacarığına yiyələnmək və s.

Uşağın məktəbə hazırlanmasını normal təşkil etmək üçün valideyn və ya tərbiyəçi uşağın fiziki və psixi fəaliyyətini öyrənməyə çalışmalı, inkişaf prosesini izləməli, “məktəb yetişkənliyi” istiqamətində inkişafın normal gedib-getmədiyini müəyyənləşdirməlidir.

Deyilənlərdən məlum olur ki, uşağın məktəbə hazırlanması ciddi pedaqoji problemdir. Uşaq bağçasında bu vəzifənin yerinə yetirilməsinin özünəməxsus cəhətləri, pedaqoji və psixoloji problemləri mövcuddur.

Fəslin ikinci yarımfəsli *“Problemin pedaqoji və metodik ədəbiyyatda qoyuluşu”* adlanır. Uşağın məktəbə hazırlanması problemi tarixən pedaqoq, psixoloq, metodist, fizioloq, həkim və loqopedlərin diqqətini cəlb etmişdir. Bu, məktəbəqədər dövrdə uşaqların sağlamlığı və gigiyenası, fiziologiyası, nitqi, əqli hazırlığı, psixologiyasında baş verən nöqsanlar və çatışmazlıqlarla bağlıdır.

60-cı illərdə akademik L.V.Zankov, L.A.Venqer uşaqların təlimə psixoloji hazırlığını araşdırmış, riyazi təsəvvürlərin, həmçinin təlimin mənəvi-iradi şərtlərinin formalaşdırılmasını işləmişdir. Pedaqoji ədəbiyyatda uşaq bağçasında məktəbə keçidin dönüş anı olması haqqında çoxlu fikirlər irəli sürülmüşdür. Həqiqətən də bu dövr uşaqların həyatında ciddi bir mərhələdir. Prof.A.N.Leontyev, A.B.Zaporojes, Y.F.Zmananovski, Y.Ş.Kərimov, Ş.A.Amonaşvili, R.S.Bure, Ə.Ə.Qədirov bu problemə ciddi əhəmiyyət vermişlər. Son illər Azərbaycanda da bu sahədə xeyli uğurlu tədqiqatlar aparılmışdır. Prof.M.Həmzəyev, prof.R.Əliyev, G.B.Tağıyeva, P.Məmmədova, L.Əmrahlı məktəbəqədər yaşlı uşaqların məktəb təliminə psixoloji hazırlığı, fərdi psixoloji xüsusiyyətləri, xüsusilə özünüqiymətləndirmə ilə təlim fəaliyyəti arasındakı

asılılığı öyrənmişdir.

Hələ 1973-cü ildən prof.Y.Kərimov ailədə, bağçada və məktəbdə uşağın məktəbə hazırlanması üzrə sistemli eksperimental tədqiqata başlanmış və belə bir nəticəyə gəlmişdir ki, uşaqda hər şeyi bilmək həvəsi oyatmaq, ona ətraf aləmin müxtəlif sahələri haqqında biliklər vermək son dərəcə vacibdir.

Rus alimlərindən A.V.Zaporojets, L.F.Ostrovskaya, Z.T.Topeyeva, Q.M.Lyaminanın tədqiqatları da əhəmiyyətlidir. Onların qənaətincə, məktəbə hazırlıq kompleks yanaşma tələb edir. Uşağı məktəbə hazırlamaq üçün aşağıdakı şərtlər əsas götürülür: uşağı həyatın yeni dövrünə hazırlamaq; onu təlimə psixoloji cəhətdən hazırlamaq; onun ictimai fikrinin formalaşması; əmək vərdişlərinin formalaşması; uşaqda yaşlını dinləmə, eşitmə, anlama bacarığının yaranması; ünsiyyət mədəniyyətinin formalaşması.

Psixoloq və pedaqoqların əksəriyyəti uşağın ümumi psixoloji inkişafını ön plana çəkirlər. Uşağın ümumi inkişafı, hər şeyi bilmək həvəsinin inkişafı, oxumağa, əqli işə cəhdi başlıca məsələdir.

Psixoloq L.Pavlova erkən yaşdan uşaqların məktəbə hazırlanmaları problemini tədqiq etmiş və belə bir nəticəyə gəlmişdir ki, uşağın məktəbdə yaxşı oxuması aşağıdakı psixoloji xüsusiyyətlərlə əlaqəlidir:

- bələdləşmə dairəsinin intensiv inkişafı;
- uşağın psixi fəallığının xarakterinin dəyişməsi;
- motivləşdirilmiş hərəkət əhval-ruhiyyəsinin özünü göstərməsi;
- fəal təqlidetmə qabiliyyətinin inkişaf etməsi.

Tədqiqatların bir qrupunda problemə ailə ilə vəhdətdə baxılır.

Bu baxımdan L.Ostrovskaya, V.Terskaya, A.Kuznetsova, A.Aleyeva, A.Zaumnitsına uşağın məktəbə hazırlanması sahəsində valideynlərin yol verdikləri nöqsanlar üzərində dayanırlar. Onlar valideynlərin uşaqları məktəbə birtərəfli hazırlanmalarını, onlara çoxlu biliklər verməyə, oxumağı, yazmağı və hesablamağı öyrətməyə səy göstərmələrini pisləyirlər.

Beşyaşlıların nitqinin inkişaf etdirilməsi, xüsusilə, nitqin səs mədəniyyəti, uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi yolları prof.Y.Ş.Kərimov tərəfindən hərtərəfli işlənmişdir. Bu məsələlər müəllifin "Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası" adlı kitabında ətraflı şərh olunmuşdur. Kitabda savad təliminə hazırlıq anlayışı genişliyi ilə açılır, bu istiqamətdə işin vəzifələrindən bəhs olunur. Müəllif oxu, həmçinin yazı təliminə hazırlığın məzmununu açdıqdan sonra savad təlimi üzrə işin təşkili, xüsusilə oxu texnikası üzərində dayanır.

Müəllif sonrakı "Uşaq məktəbə gedir" adlı monoqrafiyasında uşağın

məktəbə hazırlanması üzrə məsələləri xeyli konkretləşdirir, uşaqları ilkin oxu və yazı (böyük çap hərflərlə) texnikasına hazırlamağın yollarını şərh edir.

Məlumdur ki, beş yaşa qədər xarakter yaranır. Uşaq beş yaşadək insan, ətraf aləm haqqında informasiyaların doxsan faizini mənimsəyir. Sonrakı illərə informasiyaların yalnız on faizi qalır. Uşaqlıq illərində gördükləri, eşitdikləri və öz fikirləri ilə insanı valeh edir. Ona görə də çalışmaq lazımdır ki, ilkin təəssüratlar, işıqlı, parlaq, şən, əyləncəli olsun, rahatlıq gətirsin.

L.S.Vıqotskinin 6 yaşın təlimə başlamaq üçün ən optimal dövr olması haqqında fikri buna misal ola bilər. 30-cu illərdə söylənmiş bu ideya akselerasiyanın inkişafa təkan verdiyi indiki dövrdə beşyaşlılara aid edilə bilər. Akad.D.B.Elkonin uşaq bağçasına icbari təlim məşğələlərinin gətirilməsinə razılığını bildirir, inkişafın məhz təlim prosesində vüsət aldığını qeyd edir. O, təlimə 6, hətta 5 yaşdan başlanmasını mümkün hesab edir.

Azərbaycanda bu ideya prof.Y.Ş.Kərimovun diqqətini cəlb edir. Y.Ş.Kərimovun beşyaşlıların ailədə, uşaq bağçalarında məktəbə hazırlanmaları və eksperimental I siniflərdə təhsil almaları üçün tərtib etdiyi "Əlifba" məşğələ vəsaitindən hazırda respublikamızın uşaq bağçalarında geniş sürətdə istifadə olunur.

Üçüncü yarımfəsil "Uşaq bağçasında beşyaşlıların məktəb təliminə hazırlanmaları üzrə işin proqramda qoyuluşu" adlanır. 1960-cı ildən 2000-ci ilə qədər mövcud proqramlar təhlil olunur. Getdikcə təkmilləşən proqramlarda məktəbə hazırlıq qrupunda təlimi başa çatdırarkən uşaqların savad təlimi və riyaziyyatın əsasları, ətraf aləmlə tanışlıq üzrə müəyyən bilik və bacarıqlar əldə etmələri nəzərdə tutulurdu.

Proqramda uşaqların nitqinin inkişafı ön plana çəkilir, onların lüğət ehtiyatının zənginləşdirilməsi, söz ehtiyatının artırılması üzərində işin mexanizmi açılır. Riyazi hazırlıq zamanı uşaqların say təliminə 10 (onluq) dairəsində kəmiyyət təsəvvürünün inkişaf etdirilməsinə, sadə hesab məsələlərinin həlli və tərtibinə, ölçmələr aparılmasına uşaqların gözəyarı ölçməsinin, həndəsi formalar və vaxt haqqında təsəvvürlərin inkişaf etdirilməsinə diqqət verilirdi. Ətraf aləmlə tanışlıq məşğələlərində uşaqların bağça, onun həyatı, işçiləri, yaşıdları ilə, ən çox yayılmış peşə sahibləri, yaşlıların əməyi, doğma diyarın təbiəti, bitkilər və heyvanlar aləmi, ölkəmiz, orada yaşayan xalqlar, onların müxtəlif dillərdə danışmaları, Azərbaycanın, onun bayrağı, gerbi, paytaxtı, siyasi bayramlar, milli bayramlar, tarixi günlər, ordu, vətənin müdafiəsi və s. ilə tanış olurlar. İlin fəsilləri, fəsli

dəyişikliklərin bitkilər və heyvanlar aləminə, insanların əməyinə təsiri haqqında mühüm məlumat alırlar. Proqramlarda əmək təlimi, quraşdırma, fiziki inkişaf və sağlamlığa qaygı ön plana çəkilir.

Fəslin dördüncü yarımfəsli *"Məşğələ vəsaitlərində problemin qoyuluşu"* adlanır. Məşğələ vasaitləri dedikdə, xüsusilə böyük və məktəbəhazırlıq qruplarında uşaqların I sinfə hazırlanmalarına kömək edən vəsaitləri nəzərdə tuturuq. Buna isə diqqət keçən əsrin 60-cı illərindən başlanmışdır. Bu baxımdan 1968-ci ildə çapdan çıxmış "İlk addımlar" kitabı (Y.Ş.Kərimov, Ə.Ə.Əlizadə) xüsusi əhəmiyyət kəsb edir.

"Məktəbəqədər yaşlı uşaqlar üçün müntəxəbat" adlı vəsait də uşaqların məktəb təliminə hazırlanmalarına xidmət edir. X.Səlimxanovanın hazırladığı metodik tövsiyədə uşaqların məktəb təliminə hazırlanmalarında uşaq bağçasında işin təşkili və məktəblə əlaqə formaları, Ş.A.Baxışovanın «Kiçikyaşlı uşaqların tərbiyəsində islam dəyərlərindən istifadə» adlı vəsaitdə islam əxlaqının, islam mənəviyyatının və mədəniyyətinin müsəlman aləmində böyük roluna toxunulmuş, insanın mənən kamilləşməsində və formalaşmasında islam dəyərlərinin böyük əhəmiyyətindən bəhs edilmişdir.

L.K.Cəfərova, D.M.Dadaşzadənin «Uşaq bağçasında savad təlimi» adlı vəsaiti uşaqlara dilimizin fonetik sistemini öyrətməyə xidmət edir. R.Ə. Əsgərovanın «Məktəbəqədər yaşlı uşaqların rabitəli nitqinin inkişaf etdirilməsi» adlı metodik vəsaitdə isə rabitəli nitq anlayışı, uşaqların rabitəli nitqinin inkişaf etdirilməsinin elmi əsasları, bədii parçaların öyrədilməsi, ətraf aləmlə tanışlıq və əmək prosesində rabitəli nitqin inkişaf etdirilməsi kimi məsələlər şərh edilir. Metodist S.Abdullayevanın "Məktəbəqədər təhsil müəssisələrində monitorinq və qiymətləndirmə" adlı kitabında məktəbəqədər təhsil müəssisələrinin öz işlərini müasir tələblər səviyyəsində qurması, müəssisə rəhbərinin pedaqoji fəaliyyətinin, tərbiyəçilərin peşəkarlıq səviyyəsinin və pedaqoji fəaliyyətinin qiymətləndirilməsinin meyarları və parametrləri elmi şəkildə şərh olunur, müasir təlim texnologiyalarnın tətbiqinin optimal yol və vasitələri göstərilir.

Nəhayət, fəslin sonuncu yarımfəsli *"Uşaq bağçalarında beşyaşlıların məktəbə hazırlanmaları üzrə işin vəziyyəti"* adlanır.

Tədqiqat zamanı apardığımız müşahidələr göstərdi ki, I sinfə gələn uşaqlar məktəb təliminə hazırlıq baxımından müxtəlif səviyyədə olurlar:

1) uşaqların çox az bir qismi məktəbə yüksək hazırlıqla gəlir. Tək-tək də olsa elə uşaqlara rast gəlirik ki, onlar gözəl nitqə, məntiqi təfəkkürə malik olur, sərbəst oxumağı, çap hərflərlə yazmağı, bəziləri hətta ayrı- ayrı sözləri əl yazısı ilə yazmağı bacarırlar.

Onlar 20-yə qədər ardıcıl, 10-a qədər düzünə və tərsinə saymağı, 10

dairəsində toplama və çıxma əməliyyatı aparmağı, sadə həndəsi fıqurları (üçbucaq, çoxbucaqlı, kvadrat, dairə) fərqləndirməyi və çəkməyi, zaman, vaxt anlayışlarını, səmtləri tanımağı bacarırlar.

2) uşaqların təxminən 10-15 faizi beşyaşlıların məktəb təliminə hazırlanmaları üzrə tələblərə tam cavab verir. Onlar heç bir çətinlik çəkmədən təlimə qoşulur, böyük həvəslə təhsil alırlar. Belələri üçün təlim yük deyil, fərəh, inkişaf mənbəyi olur.

3) I sinfə gələnlərin əksəriyyəti (70-75%-i) məktəbə yarı-yarımçıq hazır olurlar. Onların hazırlığı birtərəfli olur. Onlar ya nitq, ya psixoloji hazırlığı, ya savad təlimi, ya riyazi təfəkkürü, ya təsviri fəaliyyəti, ya musiqini qavraması, ya ümumi sərbəstliyi, yaradıcı müstəqilliyi və s. üzrə seçilirlər. Şübhəsiz, bunların bir neçəsinin özlərində əks etdirənlər də olur.

4) uşaqların 5-6 faizi bu və ya digər sahədə özünü göstərməyə çalışır, öyrənməyə həvəsi olduğunu biruzə verir, lakin, demək olar ki, əsaslı bir şey nümayiş etdirə bilmir.

5) I sinfə gələnlərin 2-3 faizi, demək olar ki, heç bir hazırlığı olmayan, qaradinməz uşaqlardan ibarət olur.

Beləliklə, I sinfə qəbul edilənlərin ən çox 30-35 faizinin məktəb təliminə hazır olması ilə razılaşmaq mümkündür. Deməli, bu gün uşaqların 65-70 faizinin məktəb təliminə hazırlıq səviyyəsi qənaətbəxş deyil.

Belə bir sual qarşıya çıxa bilər: "Məktəbə hazırlığı qənaətbəxş olanlar (30-35%) kimin hesabındadır?" Bu sual hamını düşünməyə məcbur edir. Hamı deyə bilər ki, uşaq bağçalarının hesabına. Bu fikirlə razılaşmalı olsaq, qarşıya başqa bir sual çıxacaq: "Beşyaşlıların neçə faizi uşaq bağçası ilə əhatə olunur?" Rəsmi məlumata görə bu faiz 12,5-dir.

Bununla əlaqədar biz düşünməli oluruq: "Məgər uşaq bağçası məzunlarının hamısı məktəbə tam hazır gəlir?" - Əlbəttə yox. Əvvəla, uşaq bağçalarına davamiyyət aşağıdır, ikincisi məzunların 4-5 faizi məktəbə tam hazır olur. Bəs qalanlar kimin hesabınadır?

Bu suala cavab axtarmaq məqsədilə müəyyən araşdırmalar apardıq. Məlum oldu ki, uşaq bağçalarında bu istiqamətdə sistemli iş aparılır və bir çox yerlərdə yaxşı nailiyyət əldə edilir. Hazırlıq işi bağçadan başqa azsaylı xalqların balalarının təhsil aldıqları məktəblərin hazırlıq qruplarında, avqust ayında təşkil olunan qısamüddətli məşğələlərdə, ailələrdə də aparılır. Təcrübə göstərir ki, bəzi ailələrdə uşaqlar məktəbə heç də bağçadakından pis hazırlanmırlar.

«Beşyaşlıların məktəbə hazırlanması» anlayışına iki aspektdən yanaşmaq lazımdır:

1) məktəbəqədər tərbiyə müəssisəsində müəyyən yol keçmiş uşağın 5 yaşında məktəbə hazırlanması;

2) yalnız bir il müddətində məktəbə hazırlıq qrupuna cəlb olunmuş uşağın məktəbə hazırlanması.

Birinci halda ola bilər ki, uşaq bir yaşından sonra körpələr evində tərbiyə olunduqdan sonra bağçada olmuş və oranı başa vurmuşdur. Deməli, o, azı 4 il ictimai tərbiyə görür, dövlət proqramı üzrə tam kurs keçir. Bu kursun müddəti 3 və ya 2 il də ola bilər.

İkinci halda valideyn övladının məktəbə getmək dövrünün yaxınlaşdığını, lakin onun məktəb təliminə hazır olmadığını hiss edir, məcburiyyət qaşısında onu uşaq bağçasının məktəbə hazırlıq qrupuna gətirir. Bu birillik hazırlıq, onu qismən də olsa məktəbə hazırlayır.

Əgər birinci variant normal təşkil edilərsə, beşyaşlıların məktəb təliminə tam hazır olmalarına inanmaq mümkündür. Nə üçün "normal təşkil olunarsa" şərtini qoyuruq. Ona görə ki, məktəbəqədər tərbiyə və təlim proqramının tələblərinə görə uşaq kiçik qrupdan (əslində doğulduğu gündən) məktəb təliminə hazırlanır. Əgər kiçik, orta, böyük qruplarda proqram tələbləri ardıcıl, sistemlə yerinə yetirilməzsə, məktəbə hazırlıq qrupunda tərbiyəçinin gərgin əməyi lazımi nəticə verməz. Ona görə də uşağın yalnız hazırlıq qrupunu keçməsi, məktəbə hazırlığın tələblərini qismən ödəməsini qeyd edirik.

Problemlə bağlı bağçada görülən işlər bizi qane edirmi? Problem baxımından bağçalarda vəziyyət necədir? Bu suala cavab tapmaq məqsədilə bir sıra şəhər və kənd uşaq bağçalarında müşahidə aparmış, təcrübəsini öyrənib ümumiləşdirməyə çalışmışıq.

Bakı şəhəri Nizami rayonu 59 nömrəli, Yasamal rayonu 34 və 99 nömrəli, Nəsimi rayonu 132 nömrəli, Nərimanov rayonu 183 nömrəli, Əzizbəyov rayonu 189 nömrəli, Səbail rayonu 39 nömrəli uşaq bağçalarında beşyaşlıların məktəbə hazırlanması üzrə xeyli təcrübə toplanmışdır. Yazılı anket sorğusuna Bakı, Sumqayıt, Abşeron, Şamaxı və Şabranda fəaliyyət göstərən körpələr evi, uşaq bağçalarının məktəbəhazırlıq qrupunda çalışan 124 tərbiyəçi cəlb edildi. Bizi maraqlandıran ən mühüm məsələ tərbiyəçilərin uşaqları neçə il (neçə yaşından) məktəbə hazırlamalarını öyrənmək idi. Sorğuda iştirak edən 124 tərbiyəçinin cavabları ümumiləşdirilmiş və nəticələri dissertasiyada verilmişdir.

Tərbiyəçilərlə sorğunun keçirildiyi dövrdə valideynlərlə də yazılı sorğu təşkil olundu. Məqsəd beşyaşlıların məktəb təliminə ailədə necə hazırlanmalarını öyrənməklə yanaşı, həm də onların tərbiyəçilərlə əməkdaşlığını, yaxud sadəcə olaraq tərbiyəçilərin bu sahədəki işindən nə

dərəcədə xəbərdar olduqlarını aşkara çıxarmaq idi. Dissertasiyanın müvafiq səhifələrində valideynlərlə keçirilən sorğulardan alınan cavablar ümumi şəkildə öz əksini tapmışdır.

Beləliklə, araşdırmalar göstərdi ki, beşyaşlıların məktəb təliminə hazırlanmaları sahəsində müəyyən işlər görülsə də, hələ görülməli işlər, nöqsanları doğuran obyektiv və subyektiv səbəblər çoxdur. Bu sahədə işin qaydaya salınması üçün bağçanın tərbiyəçiləri, valideynlər və yaxınlıqdakı məktəbin müəllimləri (xüsusilə, növbəti il bağçanın məzunları ilə məşğul olan IV sinif müəllimləri) birgə fəaliyyət proqramı hazırlamalı və onun həyata keçirilməsinin yollarını müəyyənləşdirməlidirlər.

Yuxarıda adları çəkilən bağçalarda beşyaşlıların məktəbə hazırlıq səviyyələrini öyrənmək üçün pedaqoji diaqnostikadan da istifadə olundu. Diaqnostik tədqiqata 290 uşaq cəlb edildi. Materiallar və səviyyələri müəyyənləşdirmək meyarları hazırlanıb təqdim edildi.

Bu prosesdə uşaqların ətraf aləmdəki əşya və hadisələr, təbiətdə baş verən hadisələr, təsviri incəsənət və əmək təlimi üzrə bacarıqları da öyrənildi. Diaqnostikanın nəticələrinə əsaslanaraq problemin həllinə elmi yanaşmanı təmin etdik.

Müəyyənedici eksperiment xarakterli belə araşdırmadan sonra eksperimental və kontrol qruplar müəyyənləşdirildi. Bakı, Şamaxı, İsmayıllı və Qəbələ rayonlarında təxminən eyni səviyyədə 18 bağça eksperimental, 18 bağça kontrol adlandırıldı. Bu bağçaların məktəbə-hazırlıq qruplarında uşaqların sayı da təxminən bərabər idi. Eksperimenal qruplarda 365, kontrol qruplarda 349 uşaq var idi.

Əsərin II fəsli **“Beşyaşlıların məktəb təliminə hazırlığı üzrə işin sistemi”** adlanır və 3 yarımfəsli əhatə edir. *“Beşyaşlıların məktəbə fiziki hazırlığı”* adlanan birinci yarımfəsildə məktəb təliminə başlayan uşaqların fiziki cəhətdən sağlamlığının əhəmiyyəti qeyd olunur və bir sıra tələblərin həyata keçirilməsi tələb edilir: uşağın normal fiziki və əsəb-psixi hazırlığı; sağlamlığının vəziyyəti; əsas hərəkətlərin bütün növlərinə (yeriş, müvazinət, saxlama, tullanma, atma və s.) müvəffəqiyyətə yiyələnmə; 4) iradənin inkişafının və orqanizmin dözümlülüyünün müəyyən səviyyəsi.

Məktəbə fiziki hazırlığın təmin olunması uşaqların anatomik-fizioloji xüsusiyyətlərinin, ürək-damar sisteminin, həzm aparatının, sinir sisteminin, lamisə analizatorlarının normal inkişafı ilə bağlıdır.

Məktəbəqədər müəssisələrin rəhbərləri tibb müəssisələrinin köməyi ilə uşaqların sağlamlığının qorunmasına diqqət yetirməli, vaxtaşırı müayinələrin keçirilməsini təmin etməlidirlər. Dissertasiyada bu istiqamətdə eksperimental iş təşkil olunduğu qeyd edilir və nəticələr elmi şəkildə şərh olunur.

İkinci yarımfəsil *"Uşağın məktəbə psixoloji hazırlığı"* adlanır. Burada uşağın məktəb təliminə hazırlanması, onun fizioloji, sosial və psixoloji inkişafından söz açılır. Uşağın məktəb təliminə psixoloji hazırlığı dedikdə, təhsilin məzmununa daxil olan, tədris fəaliyyəti formasında mədəniyyətin müəyyən hissəsini mənimsəməyə hazır olması nəzərdə tutulur və uşaq psixikasının bütün cəhətlərini əhatə edir.

Bağçada uşağın psixoloji hazırlığının təmin olunmasında özünənəzarətin inkişafı da mühüm rol oynayır. Özünənəzarət insan fəaliyyətinin xüsusi forması olub, şəxsiyyətlə, onun dünyagörüşü ilə bağlıdır. Özünənəzarət insanın öz səhvlərini və çatışmazlıqlarını aradan qaldırmasına xidmət edir.Uşağın məktəbdə müvəffəqiyyətlə oxuması, onun verilmiş tapşırığı yerinə yetirdiyi ilə tutuşdura bilməsi, öz fəaliyyətinə nəzarət etməsi, özünü yoxlamağı bacarması, özünə xəbərdarlıq edə bilməsi, səhvini tapıb düzəltməsi mühüm keyfiyyətdir.

Uşaqlarda özünənəzarət vərdişlərinin formalaşdırılması üzrə iş aparmaq məqsədilə metodik iş sistemi təklif etdik. Tərbiyəçilər çalışdılar ki, uşaqların öz hərəkətlərinə nəzarət edə bilib-bilməmələrini öyrənsinlər. Onlar həmçinin uşaqlara verdikləri nümunələrin onların fəaliyyətlərinin keyfiyyətinə təsir göstərmələrini öyrəndilər. Uşaqlar üçün hansı daha asandır: özünənəzarət, yoxsa qarşılıqlı nəzarət?

Eksperimental işin gedişi və nəticələri dissertasiyanın müvafiq səhifələrində əksini tapmışdır.

Cədvəl 2.1.

Uşaqlarda özünənəzarət vərdişlərinin formalaşdırılması üzrə iş

| Düzgün düzəliş | | Səhvə yol verib | | Səhv düzəliş | |
|---|---|---|---|---|---|
| Özünü yoxlayanda | Qarşılıqlı yoxlayanda | Özünü yoxlayanda | Qarşılıqlı yoxlayanda | Özünü yoxlayanda | Qarşılıqlı yoxlayanda |
| 22 | 34 | 12 | 8 | 6 | 2 |

Cədvəldən görünür ki, uşaqlar öz işlərinə nisbətən digərlərinin işinə daha yaxşı nəzarət edirlər. Aparılmış tədqiqat göstərdi ki, uşaqların əmək qabiliyyətinin səviyyəsi uşağın fiziki hazırlığından, ailə tərbiyəsinin səviyyəsindən, məişət şəraitindən, rejimdən asılı olur.

Valideyn və tərbiyəçilərin qarşısında duran başlıca vəzifə uşağın məşğələyə maraq göstərməsi, müntəzəm davam etməsidir. Çoxsaylı vəzifələrin içərisində nə üçün uşağın məktəbə ümumi müsbət istiqamətliliyinin yaradılması başlıca vəzifə hesab olunur? Bu vəzifənin həllində bəzi valideynlər uşaqlarda dünyagörüşünün inkişafına, onların yaddaşının biliklərlə zənginləşməsinə xüsusi diqqət yetirirlər. Bu məqsədlə onlar kiçikyaşlı uşaqları muzeylərə, sərgilərə aparır, atom enerjisi, sənayedə ondan istifadə yolları haqqında söhbətlər keçirirlər.

Belə ekskursiyalarda uşaqlar yorulur, əvvəllər öyrəndikləri, bildikləri haqqında onlarda yalan və zərərli təsəvvürlər yaranır. Uşağın məktəbə psixoloji hazırlığı hər bir fərdin psixoloji xüsusiyyətlərini və qrupun yaş xüsusiyyətlərini nəzərə almağı, onların əllərindən tutub, addım-addım irəli aparmağı tələb edir.

*"Beşyaşlıların məktəbə intellektual hazırlığı"* adlı üçüncü yarımfəsildə uşağın məktəbə intellektual hazırlığı məsələlərindən bəhs olunur. Qeyd edilir ki, intellektual hazırlığa yalnız uşaqların hər hansı elm sahəsi üzrə bilik və bacarıqlara yiyələnmələri kimi deyil, həm də onların ümumi inkişafının, əqli qabiliyyətlərinin, idrak maraqlarının, müşahidə etmə, təhlil etmə, müqayisə etmə, gördüklərini ümumiləşdirmə və müəyyən əqli nəticəyə gəlmə bacarığı daxildir.

Məlum əqli qabiliyyətlər və bacarıqlara yiyələnmək, bütövlükdə intellektual hazırlıq uşağın məktəbə psixo-fizioloji hazırlığının komponentlərindən biridir. Bir daha qeyd edək ki, məktəb təliminin effektivliyi üçün ümumi fiziki və mənəvi inkişaf, ilk növbədə ənənəvi iradi keyfiyyətlərin səviyyəsi yüksək olmalıdır.

Uşaqların məktəb təliminə intellektual hazırlığı uşaq bağçasında tərbiyə-təlim işinin məzmununu təkmilləşdirməyi tələb edir. Son illərdə məktəbəqədər tərbiyə proqramına təlim vəzifələrinin geniş ölçüdə əlavə olunması nəticəsində uşaqlar elə bilikləri mənimsəyir, elə əqli əməliyyatlar aparmağı öyrənirlər ki, əvvəllər buna I sinifdə də nail olmaq mümkün deyildi.

Uşaqların intellektual imkanları yeni effektli forma və metodlardan istifadə olunmasını tələb edir. Məktəbəqədər dövrdə bu və ya digər intellektual keyfiyyətlərin inkişafı aşağıda qeyd etdiyimiz bir neçə amildən asılıdır:

1) uşaqların fəaliyyətindən asılılıq. Hər bir yaş mərhələsində bu baxımdan fəaliyyətin müəyyən növü aparıcı əhəmiyyətə malikdir. Bununla əlaqədar məktəbəqədər yaşlı uşaqların təlimi ənənəvi məktəb dərsi formasında deyil, oyun, təsviri və praktik fəaliyyət şəklində aparılarsa, maksimal pedaqoji effekt üçün imkan yaradar.

2) uşaqların öyrənilən materialın mühüm əlamətlərinə bələdləşmələrinə diqqət yetirilməlidir. Bu, göstərilən materialın mənimsənilməsini və başa düşülməsini fövqəladə dərəcədə asanlaşdırır.

3) intellektual əməliyyatlar və anlayışlar mərhələlərlə formalaşır. Uşaqlarda əqli marağın formalaşdırılması onların ümumi əqli inkişaf səviyyəsinin yüksəlməsini təmin edir.

Bu keyfiyyətlərin təmin olunması üçün savad təlimi, riyazi hazırlığı, əmək təlimi və s. üzrə eksperimental iş aparıldı. Savad təlimi məşğələlərində əlifbamızdakı bütün hərflərin böyüyünün çap şəkli ilə tanışlıq, onların yazılması, hecalarla oxu, oxunmuş ədəbiyyat üzrə iş, nitq inkişafı əhatə olundu^ Eksperimentin nəticələri göstərdi ki, hazırlıq qruplarının uşaqlarında məktəbdə təhsil almaq üçün lazımi vərdişlər formalaşır. Onlarda idrak marağı, müşahidəçilik, diqqətin davamlılığı, nitq inkişaf edir. Burada valideynlərlə əlaqəni möhkəmləndirərək uşaqların təbiətlə, ümumiyyətlə, ətraf aləmlə tanışlığı, estetik inkişafı, ictimai davranış və gigiyenik vərdişlərin yaranması təmin edilir.

Eksperiment zamanı çalışdıq ki, uşaqlar diqqətlərini eyni vaxtda bir neçə obyektə yönəltməyi öyrənsinlər. Uşağın diqqətini bir sahədən başqa sahəyə yönəltməyi bacarması da onun tədris fəaliyyətinə hazırlanması üçün zəruri olan şərtdir.

Gələcək məktəbli üçün zəruri olan şəxsiyyətin bir çox keyfiyyətləri tədris fəaliyyətinin yaranması prosesində formalaşır və təkmilləşir. Elə buna görə də biz qarşımıza belə bir vəzifə qoyduq ki, hər bir məşğələnin məzmunu və metodikası uşaqlarda onların məktəbdə təlimi üçün bünövrə olacaq keyfiyyətlərin formalaşmasını təmin etsin. Onlarda nümunəni müəyyən sürətlə izləmək, diqqəti qorumaq, özünənəzarət, özünüqiymətləndirmə, müstəqillik, fəallıq, təşəbbüskarlıq göstərmək bacarığı yaransın.

Uşaqların məktəbə ümumi intellektual hazırlığı ilə yanaşı, onların öyrənəcəkləri ayrı-ayrı fənləri mənimsəməyə hazırlanmaları üzərində də dayanmaq lazımdır. Belə bir problemi həll edərkən, ümumi hazırlığı xüsusi hazırlığa qarşı qoymaq olmaz. Elə bir sistem və metod işləmək lazımdır ki, uşağın xüsusi hazırlığı (savada, ilkin riyazi təsəvvürlərə və s. yiyələnmə) onun ümumi əqli inkişafını təmin etsin.

Eksperiment göstərdi ki, uşaqların biliyi artdıqca, onların sistemliliyinin rolu da artır. Sistemlilik biliklərin mühüm və keyfıyyətcə zəruri əlaməti olub, əqli inkişafının gedişinə və səviyyəsinə təsir göstərir. Eksperimentin gedişi zamanı tərbiyəçilərlə də sistemli məşğul olduq. Uşaqlarda təlimə, məşğələlərdə öyrənməyə müsbət münasibətin formalaşdırılması yollarını şərh etdik. İlk növbədə məşğələlərdə uşaqlarda müsbət

emosional vəziyyətin qorunması təmin edildi. Belə vəziyyətdə uşaqlar təqdim olunan məzmunu daha yaxşı qavrayırdılar.

Müsbət emosional əhval-ruhiyyəni təmin etmək üçün tərbiyəçi maraqlı sual verir, faktları izah edir, yeni biliklər verir, uşaqların işini, hərəkətlərini müsbət qiymətləndirir. O, xeyirxahlıqla uşaqları inandırır ki, təkidlilik, səbr, səliqəlilik, ədalətlilik göstərsinlər. Uşaqların nöqsanlarını üzünə vurmamaq, onları qıcıqlandırmamaq çox mühüm şərtdir. Eksperimentin gedişi zamanı öyrəndik ki, təlimə marağın aşağı olması müxtəlif səbəblərlə bağlıdır:

- uşaqların körpə ikən pedaqoji baxımsızlığı;
- uşaqların kiçik yaşlarından somatik sağlamlağının zəifliyi, əsəb sisteminin funksional dalğınlığı;
- psixi inkişafın ləngiməsi.

Dissertasiyada uşaqların fərdi fərqlərinin beş səviyyəsi qeydə alınmış və hər biri şərh olunmuşdur.

Uşağın məktəbə hazırlanması üzrə iş sistemində riyazi hazırlıq mühüm yer tutur. Məktəbə hazırlıq qrupunda uşaqlar 20 dairəsində ədədlər və rəqəmlərlə toplama cədvəli ilə tanış olur, rəqəmlərdən, +,—, = işarələrindən istifadə etməyi, əşyaları 2,3,4.... bərabər hissəyə bölməyi, verilmiş ölçü ilə hesablamağı, xətkeşdən istifadə etməyi öyrənirlər. Dissertasiyada sadə riyazi təsəvvürlər üzrə təcrübi işlər öz əksini tapmışdır. Sadə riyazi təsəvvürlər mücərrəd məntiqi riyazi təfəkkürün əsası hesab olunur. Onun köməyi ilə uşaq ayrı- ayrı əşya və hadisələrin ümumi xassələrini dərk edir, onlar arasındakı sadə əlaqələri və asılılığı anlayırlar.

Beşyaşlıların əmək təliminə hazırlığı üzrə məşğələlərdə uşaqlara gördükləri işin mənasını dərk etmək, işi yerinə yetirərkən fikirləşmək, əməliyyatın ardıcıllığını müəyyənləşdirmək, iştirakçılar arasında vəzifə bölgüsü aparmaq, bir-birinə kömək etmək, alətlər və materialla ehtiyatla davranmaq, məişətdə, tikintidə, fabrik və zavodlarda, kənd təsərrüfatındakı əmək haqqında təsəvvürlər yaratmaq, oradakı peşə sahiblərinin əməyini qiymətləndirmək öyrədildi.

Eksperiment zamanı uşaqların aşağıdakı bacarıq və vərdişlərə yiyələnmələri ön plana çəkildi: ağac, çəkic, kəlbətin, fırça ilə iş, kağız və kartonla iş, parça ilə iş, təbiət materialları (küləş, sünbül, qoza və s.) ilə iş, təbiətdə amək. Əmək təlimi sahəsində diqqəti cəlb edən ən mühüm cəhətlərdən biri də uşaqların birgə əməyə hazırlanmaları oldu. Bu prosesdə bir-birini başa düşmək, mübahisəni düzgün həll etmək, güzəştə getməyi, kömək etməyi bacarmaq, müstəqil yaradıcı fəaliyyətin hamı tərəfindən qəbul edilməsinə nail olmaq vərdişi təlqin edildi. Beşyaşlıların məktəb təliminə

hazırlanmalarında təsviri incəsənət məşğələləri də mühüm əhəmiyyət kəsb edir. Bu məşğələlərdə uşaqların gözəlliyi duymaq, sevmək, yaratmaq həvəsi hökm sürür. Əlinə rəngli karandaşlar, boya keçən uşaqlar rəngləri, onların çalarlarını, rəng uyuşmalarını duymağa başlayırlar. Eksperimental qruplarda həcmli əşyaların (stəkan, küpə, dəm çayniki, elektrik lampası, güldan) çəkilməsi üzrə iş təşkil olundu. Tərbiyəçi tərəfindən əməliyyatın izahı tələb olunduqda onlar naturanın təsvirinin qaydasını və ardıcıllığını izah edirlər. Əvvəllər uşaqlar öyrənənədək tərbiyəçi yazı taxtasında əməliyyatı izah edə-edə nümunə verə bilər. Təmrin elə təşkil olunur ki, uşaqlar tərbiyəçinin rəsminin üzünü köçürməsinlər. Məşğələdə iştirak edən üç qrupun 34-36 uşağından hər dəfə 8-12 nəfəri tapşırığı yüksək səviyyədə yerinə yetirdi. Məşğələdə iştirak edən uşaqların əksəriyyəti işin öhdəsindən gəlmiş, 71 nəfər 10, 35 nəfər 9, 26 nəfər 8 qiymət almışdır. Bu göstərir ki, təsviri incəsənət üzrə müntəzəm səmərəli işin təşkili yaxşı nəticə verir.

Fəslin sonuncu yarımfəsli *"Uşağın məktəbə hazırlanması sahəsində bağça ilə ailənin birgə işi"* adlanır. Burada bağça və validenylərin əlbir işinin səmərəli və düzgün təşkilindən, valideynlərin bağçanın həyatında fəal iştirakı, təlim və tərbiyə prosesinin gedişi ilə tanış olmaları, uşaqların keçirdikləri tədbir və bayramlarda iştirakının əhəmiyyətindən danışılır.

Təcrübə və müşahidələr göstərir ki, həm uşaq bağçalarında, həm də məktəbin ibtidai siniflərində uşaqların təlim və tərbiyəsi prosesində valideynlərlə əlbir fəaliyyət işin düzgün qurulmasına təsir göstərir. Bu işdə qarşılıqlı əlaqə, tələblərdə vahidlik, müntəzəm və ardıcıl, planlı fəaliyyətin aparılmasına ehtiyac var. Hansı məsələlər ətrafında dialoq təşkil olunması zərurətini bilmək məqsədilə valideynlərlə anket sorğusu keçirdik. Sorğuda 144 valideyn iştirak etdi. Sorğuya daxil olan suallar və alınan cavablar dissertasiyada ümumiləşdirilmişdir. Beləliklə, valideynlərlə aparılan işlər göstərdi ki, uşağın məktəbəqədər tərbiyə müəssisələrində məktəbə hazırlanmasında onların fəaliyyəti də mühüm əhəmiyyətə malikdir. Valideynlərin bu sahədə fəaliyyətinin pedaqoji-psixoloji əsaslarla təşkili uşaqlar təhsilinin normal getməsinə bünövrə yaradır.

Uşaq bağçalarında beşyaşlıların məktəb təliminə hazırlanması üzrə apardığımız tədqiqatlardan aşağıdakı **nəticələr** əldə edilmişdir:

1. Uzun illər uşağın məktəbə hazırlanması kortəbii şəkildə getmişdir. Yalnız 1973-cü ildən bu sahədə sistemli işə başlanmış, altıyaşlıların məktəbdə təşkil edilmiş qruplarla yanaşı, bağçada da məktəbə hazırlanması üzrə sistemli iş aparılmış, ailədə mövcud imkanlar öyrənilmişdir.

2. Uşağın məktəbə hazırlanması ümumpedaqoji problemdir və bu anlayışın əhəmiyyətini dörd cəhətdən qiymətləndirmək olar: a) uşağın

məktəbə fiziki hazırlığı, sağlamlığı, dözümlüyü; b) ətraf aləmlə tanışlığı, dünyagörüşünün, ictimai təsəvvürlərinin, nitqinin inkişaf etməsi, oxumağa və yazmağa, hesablamağa və s. hazırlanması; c) uşağın məktəb təliminə psixoloji hazırlığı, oxumağa, öyrənməyə marağın, həvəsin baş qaldırması, iradəliliyi və s.; ç) uşaqda ümumi tərbiyə üzrə keyfiyyətlərin (əxlaqi, mənəvi, estetik keyfıyyətlər, səbirlilik, intizamlılıq, məsuliyyətlilik, kollektiv fəaliyyətə hazırlıq və s.) formalaşması.

3. Uşağın məktəbə hazırlanması xüsusi tədris planı ilə təşkil edilir. Məktəbə hazırlıq qrupunda həftədə 18 məşğələ - savad təliminə hazırlıq, sadə riyazi təsəvvürlər, ətraf aləmlə tanışlıq, təsviri incəsənət, musiqi və s. məşğələləri təşkil olunur. Bu, həmin sahələr üzrə proqram materialının intensiv mənimsənilməsini təmin edir.

4. Uşaq məktəbə hazırlanarkən aşağıdakı ümumpedaqoji keyfıyyətlərə yiyələnməlidir:

- həyatın yeni dövrü üçün iş yükünü daşımaq, təlim əməliyyatlarını yerinə yetirmək, dinləmək, anlamaq, sual vermək, suala müstəqil cavab vermək;
- müşahidəçilik, müqayisə etmək, tutuşdurmaq, mücərrədləşdirmək, ümumiləşdirmək, əqli nəticə çıxarmaq və s.

1. Uşağın məktəbə hazırlanması problemi tarixən pedaqoqların, psixoloqların, metodistlərin, fizioloqların, həkimlərin, loqopedlərin diqqətini cəlb etmişdir. Bu, məktəbəqədər dövrdə uşaqların sağlamlığı və gigiyenası, fiziologiyası, nitqi, əqli hazırlığı, psixologiyasında baş verən nöqsanlar və çatışmazlıqlarla bağlıdır.

2. Pedaqoji ədəbiyyatda uşaq bağçasında məktəbə keçidin dönüş anı olması haqqında çoxlu fikirlər irəli sürülmüşdür. Həqiqətən də bu dövr uşaqların həyatında ciddi bir mərhələ olub, bütövlükdə tərbiyə və inkişaf problemi ilə bağlıdır.

Psixoloji və fizioloji tədqiqatlar göstərir ki, məktəbəqədər yaş dövrünün axırında uşaqlar fiziki və əqli inkişaflarına uyğun olaraq məktəbdə oxumağa hazırlayan hər şeyi qavramağa qabildirlər. Bu yaşda uşaqlar təlim vasitəsilə zəngin, optimal imkanlara yiyələnirlər. Onlar üçün qavramada son dərəcə yüksək qabiliyyət xarakterikdir. Onlar çoxlu bilikləri sürətlə mənimsəyir və yadda saxlayırlar. Bu dövrdə qazanılmış biliklər ömür boyu yaddan çıxmır.

3. Ölkəmizdə son illərədək məktəbəqədər tərbiyə müəssisələrinin vəzifəsi tərbiyə ilə məhdudlaşdırılmışdır. Həyata keçirilən islahat proqramının tələblərinə görə təhsilin həmin mərhələsi məktəbəqədər tərbiyə və təlim müəssisəsi adlanırdı. Çox haqlı olaraq bu mərhələdə tərbiyə ilə

əlaqədar təlimin verilməsi də nəzərdə tutuldu. Deməli, məktəbəqədər təhsil orta təhsilin birinci pilləsi hesab edilir. Əvvəllər proqramda nitq inkişafı adı altında verilmiş sadə məlumatlar sonuncu proqramda yeni status qazandı. Əvvəllər nitq səs mədəniyyətindən söz açılır, savad təlimi ilə əlaqədar sadə, yığcam tələblər verilir, 5 sait, 11 samitin böyük çap şəkli ilə tanışlıq nəzərdə tutulurdu. Fəaliyyətdə olan proqram (1998) nisbətən asan tələffüz olunan 16 hərflə tanışlığı, ilkin oxu texnikasının yaradılmasını və böyük çap hərflərlə yazmaq vərdişinin verilməsini, 10 dairəsində toplama və çıxma əməliyyatı üzrə ilkin tanışlığı və s. nəzərdə tutur. İndi bu fəaliyyətin hüdudları genişləndi.

4. Məktəbəqədər müəssisələrdə vəziyyətlə tanışlıq göstərdi ki, müəyyən nöqsan və çatışmazlıqlar hələ də qalmaqdadır. Bəzi müəssisələrdə fəaliyyət göstərən qruplarda uşaqların sayının çox olması, qarışıq yaş qruplarının bir yerdə təlim keçməsi təlim-tərbiyə işinin keyfiyyətini aşağı salır. Belə müəssisələr cəmiyyətin müasir, artan tələblərini ödəyə bilmir. Müasir təlim vasitələri, metodik vəsait, idman avadanlığı olmadığından təlim-tərbiyə işini lazımi səviyyədə qurmaq çətindir. Uşaq bağçası və məktəb arasında varislik zəifdir. Müasir dövrdə uşaqların estetik, mənəvi, əmək və fiziki tərbiyəsinin ahəngdar inkişafını təmin etmək əhəmiyyətli məsələ kimi qarşıda durur.

5. Məktəbəqədər təhsil müəssisələrində ciddi nöqsanlardan biri fiziki mədəniyyət, texnologiya (əmək təlimi) üzrə proqram vəzifələrinin sistemlə yerinə yetirilməməsi, həmin sahələr üzrə məşğələlərin o qədər də əhəmiyyəti olmayan oyun xarakteri daşıması, kompyuterlər, onun imkanları ilə uşaqların tanış edilməmələridir.

6. Uşağın məktəb təliminə psixoloji hazırlığı dedikdə, onun təhsilin məzmununa daxil olan, tədris fəaliyyəti formasında mədəniyyətinin müəyyən hissəsini mənimsəməyə hazır olması nəzərdə tutulur.

7. Apardığımız müşahidənin nəticələri göstərdi ki, məşğələlərdə uşaqların davranışının xarakteri onların yaşlılarla ünsiyyətinin formalaşmasından asılı olur. Uşaqların doğulandan yeddi yaşınadək yaşlılarla ünsiyyətinə, ünsiyyətin özünəməxsus formalarının keyfiyyətcə dəyişməsi kimi baxmaq olar. Uşağın məktəbə hazırlanması istiqamətində işin əsasını onun əqli iş qabiliyyətinin inkişafı, idraki analitik-sintetik fəaliyyətin mürəkkəb forması, mənəvi-iradi keyfiyyətlərin daha yüksək səviyyəsi üzərində iş təşkil edir. Uşağın məktəbə intellektual hazırlanması sahəsində aparılan axtarışlar bu problemi geniş planda həll etməyi irəli sürür.

8. Uşağın savad təliminə hazırlanmasının əsasında nitqin səs mədəniyyətinin düzgün təşkili durur. Səs mədəniyyəti üzrə işin ən mühüm

vəzifəsi nitq səslərinin düzgün tələffüz edilməsi üzrə mükəmməl vərdişlərin yaradılmasıdır. Təcrübə göstərir ki, uşaq dil açmağa başladığı gündən valideynlərin peşələrindən, hazırlıq səviyyələrindən asılı olmayaraq onun nitqi xüsusilə nitq səslərinə yiyələnməsi üzərində iş gedir. Nitq səslərində işin normal təşkili uşaqların məktəbə hazırlanmalarına güclü təkan verir.

9. Təcrübə göstərir ki, uşağın məktəbə hazırlanması işində tərbiyəçilərlə yanaşı, valideynlərin də üzərinə məsuliyyət düşür. Valideynlərin pedaqoji mədəniyyətinin səviyyəsi, həmçinin uşağın ailə səviyyəsi bir çox cəhətdən məktəbəqədər müəssisələr zəminində təşkil olunmuş pedaqoji maarifin səviyyəsindən asılıdır.

10. Eksperimental axtarışların nəticələri göstərdi ki, beşyaşlılarla işin düşünülmüş sistem üzrə müntəzəm təşkili onların I sinifdə müvəffəqiyyətlə təlim almalarını təmin edir.

Tədqiqatla bağlı təkliflər:

1. Uşaqların məktəbə hazırlanması işinin səmərəli təşkili üçün xüsusi dərs vəsaitləri, didaktik materialların nəşri məqsədəuyğundur.

2. Uşaqların məktəbə hazırlanmalarına diqqəti artırmaq məqsədilə gənc valideynlər üçün metodik tövsiyələrin, kütləvi informasiya vasitələri ilə xüsusi verilişlərin hazırlanması, metodik ədəbiyyatın hazırlanması, onların maarifinin səviyyəsinin qaldırılması məsləhətdir.

Dissertasiyanın əsas məzmunu iddiaçının çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Məktəbəqədər yaşlı uşaqların (5 yaş) vətənpərvərlik tərbiyəsi / «Gənclərin vətənpərvərlik tərbiyəsinin aktual problemləri»nə həsr olunmuş respublika elmi-praktik konfransın materialları. Bakı, 25-26 aprel 1994, s.77-78

2. Beşyaşlılıarın məktəbə hazırlanması ümumpedaqoji problemdir // Pedaqoji Universitet Xəbərləri. Bakı, 1999, №6, s.43

3. 5 yaşlıların məktəbə hazırlanması // Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutu üzrə aspirant və dissertantların elmi konfransının tezisləri. Bakı, 1995, s. 17.

4. Beşyaşlıların məktəbə hazırlanmasının bəzi məsələləri // Pedaqoji tədqiqatlar, axtarışlar, tapıntılar. Bakı, 1996, №1, s.99-101

5. Beşyaşlıların məktəbə hazırlanması üzrə işin məzmunu / Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutu üzrə aspirant və dissertantlarının elmi konfransının tezisləri. Bakı, 1996, s. 25.

6. 5 yaşlıların məktəbə hazırlanmasının bəzi problemləri / Ali pedaqoji məktəblərdə humanitar və ictimai elmlərin tədqiqi və tədrisi

məsələləri. ADPU, 1996, s. 101.

7. Beşyaşlıların məktəbə hazırlanması üzrə işin məzmunu / Professor – müəllim heyətinin 60-cı elmi konfransın materialları. Bakı, ADPU, 2000, s.178

8. Azsaylı xalqların beş yaşlı uşaqlarının maktəbə hazırlanmaları / Professor-müəllim heyətinin 62-ci elmi konfransının materialları, III buraxılış, Bakı, 2002, s.225

9. Azsaylı xalqların beş yaşlı uşaqlarının maktəbə hazırlanmaları// Pedaqoji tədqiqatlar (elmi məqalələr məcmusu), Bakı, 2002, s.92

10. Uşaq bağçalarında amək tərbiyəsi və şəxsiyyətin formalaşmasında onun təsiri// Pedaqoji Universitet Xəbərləri. Bakı, ADPU, 2004, №3, s.449-450.

11. Kiçik məktəbyaşlı uşaqların əxlaq tərbiyəsinin əhəmiyyəti // Pedaqoji Universitetin Xəbərləri. Bakı, ADPU, 2004,№1, s.335-338

12. Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi problemi / ADPU-nun professor-müəllim heyətinin 65-ci elmi konfransının materialları. VI buraxılış. Bakı, 2005, s. 120.

13. Kiçik məktəbyaşlı uşaqların məktəbə hazırlanması ümumpedaqoji problemdir // ADPU-nun Xəbərləri, Bakı, 2005, №1 , s. 287-290.

14. Beşyaşlıların məktəbə hazırlanması problemlərinin məşğələ vəsaitlərində qoyuluşu //ADPU-nun Xəbərləri (humanitar elmlər seriyası). Bakı, 2006, s. 476-477.

15. Uşaqların məktəbə hazırlanmasında sosial-psixoloji amillərin rolu // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2007, №3, s. 12-16.

16. Uşağın məktəb təliminə psixoloji hazırlığı // Xəbərlər, ADPU, Bakı, 2007, №2, s.256-261

17. Beşyaşlıların savad təliminə hazırlanmaları // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2008, №3, s. 73-77.

18. Подготовка к школьному обучению // Педагогическое науки. Москва, 2009, №1 (34), ст. 128

19. Beşyaşlıların məktəbə fiziki hazırlığı // Məktəbəqədər və ibtidai təhsil. 2010, №1, s. 39-42.

20. Роль дошкольных учпеждений в подготовке пятилеток к школььному обучению // Достояние нации, Казакстан, 2011, №3, ст.112

**Мамедова Айша Муса кызы**

## Система работы по подготовке к школе пятилетних в детском саду.

## Р Е З Ю М Е

Диссертация состоит из введения, двух глав, 8 полуглав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность, цель, задачи, объект, предмет, теоретическая и практическая значимость темы, раскрываются выдвигаемые научные гипотезы, выводы, предлагаемые к защите и апробация.

I глава диссертации – «Теоретические и практические задачи проблемы» состоит из пяти полуглав. Здесь излагается подготовkа ребёнка к школе как общепедагогическая проблема и раскрываются общепедаго-гические качества. С научной точки – зрения излагаются постановка проблемы в педагогической и методической литературе, в программах, в пособиях для занятий. Анализируется положение по подготовке пятилетних к школе в детских садах и обобщаются выводы.

II глава диссертации – «Система работы по подготовке пятилетних к школьному обучению» охватывает три полуглавы. В ней объясняется физиологическое, социальное и психологическое развитие подготовки ребёнка к школьному обучению. Отмечается, что для успешного усвоения программного материала, дети должны овладеть некоторыми психологическими качествами: определение позиции школьника ребёнка, овладение умением научения, развитием мыслительного познания.

В этой главе излагаются вопросы интеллектуальной подготовки ребёнка в школе. Отмечается, что интеллектуальная подготовка состоит не только из овладения ребёнком знаний и умений по определенной отрасли науки, сюда входит также их общее развитие, умственные способности, познавательные интересы, наблюдение, анализ, сравнение, обобщение и умение делать умственных выводов.

Здесь отмечается здоровье и физическая подготовка к школе пятилетних и считаются необходимыми осуществление ряда требований.

В диссертации анализируются экспериментальные работы, связанные с исследованием и обобщаются выводы.

В конце диссертации даются выводы и рекомендации.

**A.M.Mammadova**

## The system of the work of the preparation of five-year-old children in the kindergarten

### Resume

Dissertation contains introduction, two chapters, 8 subchapters, conclusion and reference.

In the introduction the actuality of the subject is substantiated, the aim, the duty, the object and the theoretical and practical significance of it are explained, scientific supposition that put forward and issues that introduced to dependence are clarified.

The first chapter of the dissertation is called "The theoretical and practical issues of the problem" and includes five subchapters. The preparation of the child to school is explained as general-pedagogical problem here and its general-pedagogical quality is interpreted. The explanation of the work of the preparation of 5-year-old children in the kindergarten to school education in pedagogical and methodical literature, programs and training facilities are interpreted from scientific aspect. The condition of the work of the preparation of 5-year-old children in the kindergartens to school has been analyzed and the results have been summarized.

The second chapter of the dissertation is called "The system of the work of the preparation of the 5-year-old to school education" and includes three subchapters. It is about the physiological, social and psychological development of the preparation of the child to school education. It is noted that child should acquire several psychological qualities in order to comprehend the program materials successfully. The principal qualities are these: the identification of the school child position, the appropriateness of learning ability, the development of logical comprehension.

This subchapter deals with the intellectual preparation of the child to school. It is noted that intellectual preparation involves not only the appropriateness of any scientific knowledge and ability of the children, but also their general development, mental abilities, cognitive interest, the ability of the observation, analysis, comparison, to generalize what they have observed and to come to mental conclusion.

The physical preparation of the 5-year-old children, the importance of the physical health of the children who take up the trainings are noted there and the fulfillment of the several requirements are considered important.

Experimental works that carried out according to the research are analyzed and the results are generalized in dissertation.

Dissertation is concluded with the results and offers that are derived from its concept.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**Айша Муса кызы Мамедова**

# СИСТЕМА РАБОТЫ ПО ПОДГОТОВКЕ К ШКОЛЕ ПЯТИЛЕТНИХ В ДЕТСКОМ САДУ

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку – 2013**